**Kitabxananı xalq, millət, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi kimi qiymətləndirən ulu öndərin 1993-cü ildə hakimiyyətə gəlişi qurtuluş illəri hesab olunur. Bu illər həm də kitabxanaların qurtuluş illəri kimi xarakterizə edilməlidir. Belə ki, Xalq cəbhəsinin iqtidarı dövründə onların kütləvi surətdə bağlanmasının və binalarının zəbt olunmasının qarşısı alındı.**



# Azərbaycan mədəniyyətinin qızıl fondu

Heydər Əliyevin ciddi səyi, qayğısı və imzaladığı fərmanlar nəticəsində respublikamızın dövlət kitabxana şəbəkəsi qorunub saxlandı. Azərbaycan MDB ölkələri içərisində bu şəbəkəni saxlayan yeganə respublika oldu.

Keçid dövrünün çətinliklərinə baxmayaraq, ötən əsrin 90-cı illərinin ikinci yarısından kitabxana işinə ayrılan vəsait ilbəil artırılmağa başlandı. Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanuna və ulu öndərin azərbaycançılıq konsepsiyasına əsaslanmış dövlətin kitabxana siyasəti formalaşdı.

Kitabxana işi sahəsində ulu öndər tərəfindən əsası qoyulmuş bu inkişaf yolu Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyev tərəfindən daha da irəli aparılmağa başlandı. Ölkə rəhbərinin son dövrlərdə kitab və kitabxana işinə dair imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" (2004-cü il), "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar böyük strateji əhəmiyyət kəsb edir. Bu siyahıya 546 adda kitab daxil edilmişdir ki, hər bir kitabın tiraji 25.000 nüsxə nəzərdə tutulmuşdu. Beləliklə, 13 milyon 650 min nüsxə kitab nəşr edilməli idi. Sərəncamda adı çəkilən həmin kitablar çap edilib, pulsuz olaraq respublika kitabxanalarına hədiyyə olunmuşdur. Dünyada analoqu olmayan bu tədbir Azərbaycan dövlətinin mədəni siyasətinin parlaq təzahürüdür.

Adlarını çəkdiyimiz sərəncamlarla yanaşı, dövlətimizin başçısı İlham Əliyev 2007-2008-ci illərdə böyük əhəmiyyət daşıyan "Azərbaycanda kitabxana fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007-ci il) sərəncam və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı imzalamışdır.

Azərbaycan kitabxana işi tarixində ilk dəfədir ki, bu sistemi, onun əhəmiyyətini, cəmiyyətdə tutduğu mövqeyini, müasir informasiya cəmiyyəti şəraitində onların vəzifələrini, gələcək inkişaf istiqamətlərini və perspektivlərini müəyyənləşdirən böyük əhəmiyyətli bir sənəd qəbul edilmişdir. Bu sənəd kitabxana işinin yaxın gələcək üçün inkişaf proqramıdır.

Son illərdə respublikada kitabxana işi sahəsində bir çox tədbirlər görülmüş, nailiyyətlər qazanılmışdır, kitabxanaların şəbəkəsi genişləndirilmişdir. Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə 120 milyon kitab fonduna malik 10 min kitabxana var idisə, indi onların sayı 12 mindir. Bu sistemə yalnız kütləvi kitabxanalar deyil, həmçinin ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai təşkilatların kitabxana şəbəkələri daxildir. Təkcə Mədəniyyət və Turizm Nazirliyinin 4500-dən artıq kitabxanasında 40 milyondan artıq kitab və digər sənədlər oxucuların istifadəsindədir. Mədəniyyət və Turizm Nazirliyi müasir informasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələrə müvafiq çox ciddi layihələr həyata keçirməyə nail olmuşdur.

Beləliklə, son beş ildə ölkəmizdə kitabxana işinin maddi-texniki bazasının möhkəmləndirilməsi, bura ayrılan vəsaitin artırılması, müasir dövrün tələblərinə müvafiq olaraq kitabxanalarımızın müəyyən hissəsinin kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi, onların kompüterləşdirilməsi və internetə qoşulması üçün əlverişli şərait yaradılmışdır. Kitabxanalarımız YUNESKO-nun "İnformasiya hamı üçün" proqramını dönmədən həyata keçirməyə səfərbər olmuşdur.

Müstəqillik illərində Azərbaycanda kitabxana quruculuğu sahəsində qazanılmış böyük uğurlara baxmayaraq, bu sahədə həllinə böyük ehtiyac hiss edilən nöqsan və çatışmazlıqlar qalmaqdadır.

Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir. Bir neçə kitabxana istisna olmaqla, onların əksəriyyəti yararsız vəziyyətdədir. Kitabxanaların bir çoxu qəza vəziyyətində olan uyğunlaşdırılmış və ya yardımçı binalarda fəaliyyət göstərir. Respublikanın rayonlarında kənd kitabxana filiallarının bir hissəsi şəxsi evlərdə yerləşir. Kənd və qəsəbə filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan oxu zalları təşkil etmək qeyri-mümkündür.

Bu səbəbdən əhalinin 66,8 faizi kitabxanalardan istifadə edə bilmir. Onların yeni kitabxana-informasiya texnologiyası ilə təminatı və internetə qoşulması vəsait çatışmazlığı üzündən olduqca ləng gedir. Kitabxanaların informasiyalaşdırılması sahəsində aparılan işlər də ürəkaçan deyil. Onlarda beynəlxalq əlaqələrin təşkili sürətlə qloballaşan dünyanın tələblərindən çox geri qalır. İnformasiya texnologiyalarının çatışmazlığı elektron kitabxanaların və elektron kataloqun yaradılmasına imkan vermir. Kitabxana fondlarının tələbata uyğun, sistemli və məqsədli komplektləşdirilməməsi daim yeniləşən informasiya axınında oxucu kontingentinin itirilməsinə, bütövlükdə əhalinin mütaliə marağının azalmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, müasir şəraitdə respublikamızda əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində çox ciddi nöqsanlar və çatışmazlıqlar qalmaqda davam edir. Bunların tezliklə aradan qaldırılması geniş kitabxana şəbəkəsinə malik olan nazirliklərin, idarə və müəssisələrin, respublika ictimaiyyətinin və ziyalı-

larımızın qarşısında çox böyük problemlər qoyur. Həmin problemlər içərisində kitab-kitabxana-oxucu və kitabxanaçı problemi olduqca mühüm yer tutur. Müasir kitabxana bilik okeanının (kitabın) toplanıb saxlandığı, bugünkü oxucunun tez-tez müraciət etdiyi sosial təsisat olduğundan cəmiyyətin mədəni səviyyəsi həmin təsisatdan çox asılıdır. Kitabxanalar olmasa, mədəniyyətin yaddaşı itirilə bilər.

İnsan beyninin, zəkasının, təfəkkürünün yüksək məhsulu olan kitab Şumer dövründən başlayaraq zəmanəmizə qədər 3 min ildən artıq bir məsafə keçmiş, cəmiyyətin inkişaf və tərəqqiyə gedən yolunu işıqlandırmış, bəşəriyyətin yaratmış olduğu biliklәri qoruyub saxlamış, unudulmaqdan, məhv olmaqdan xilas etmiş, beləliklə də bəşəriyyətə, insanlığa, insanların tərəqqi və inkişafına, kamilləşməsinə xidmət etmişdir.

Kitablar həmişə insanlar tərəfindən yüksək qiymətləndirilmiş, bütün zamanlarda ona böyük sevgi, məhəbbət, hörmət olmuş, müqəddəs sayılmışdır.

Kitab nəşrinə böyük qiymət verən ulu öndər Heydər Əliyev deyirdi: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə kitab vasitəsilə təhsil, elm almışıq. Həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlanmışıq, ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir". Heydər Əliyevin bu ibrətamiz fikirləri müasir şəraitdə bir daha təsdiq olunur.

Təəssüflə qeyd etmək lazımdır ki, nəşriyyatlarımız bu tələbatı ödəməkdən çox-çox uzaqdır. Müstəqillik illərində nəşriyyatların, xüsusilə özəl nəşriyyatların sayının artmasına baxmayaraq, onların məhsuldarlığı, çap edilən kitabların tirajı dövrün tələblərinə cavab vermir.

Respublikamızda nəşriyyat işinin günün tələbləri səviyyəsində təşkilinə mənfi təsir göstərən amillərdən biri kadr problemidir. Nəşriyyatlarımızda, xüsusilə son zamanlar yaranmış özəl nəşriyyatlarda kitabçılıq işini, kitab nəşri fəaliyyətini dərin bilən peşəkar kadrlar olduqca azdır.

Ötən əsrin 70-90-cı illərində ölkəmizdə kitab ticarətinin vahid sistemi formalaşmışdı. Böyük şəhərlərdə və rayon mərkəzlərində kitab mağazaları təşkil edilmiş, kəndlərdə isə kitablar kənd qarışıq mallar mağazalarında satılırdı. Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda və digər şəhərlərdə ixtisaslaşmış kitab mağazaları fəaliyyət göstərirdi. Təkcə Bakı şəhərində 100-dən artıq belə mağaza var idi. Elə bu qədəri də rayonlarda fəaliyyət göstərirdi. Kitabların tirajının böyük olmasına baxmayaraq, onlar, demək olar ki, satılırdı.

Sovetlər birliyi dövründə respublikamızın ali məktəblərində də universal kitab mağazaları fəaliyyət göstərirdi. İndi Bakı Dövlət Universitetindən başqa heç bir ali məktəbdə kitab yayımı mərkəzi yoxdur. 2005-ci ildən fəaliyyətə başlayan bu mərkəzin təcrübəsi göstərir ki, onlar bütün ali məktəblərdə təşkil edilsə, kitab mütaliəsinə, onun yayılmasına mühüm təsir göstərə bilər.

Son üç ildə BDU-nun nəşriyyatı 40-dan artıq ada dərslik və dərs vəsaiti çap etmişdir. Bu dərsliklərin əksəriyyəti Azərbaycan kitabçılığı tarixində ilk dəfə nəşr edilən nüsxələrdir. Sevindirici haldır ki, həmin dərsliklər və dərs vəsaitləri tələbələr tərəfindən böyük həvəslə alınır.

Müstəqilliyin ilk illərində işbazlar özəlləşdirmə adı ilə bütün kitab mağazalarını ələ keçirib, onların binalarından başqa məqsədlər üçün istifadə etməyə başladılar. Hazırda Bakı şəhərində cəmi 4-5 kitab mağazası qalmışdır. Əlbəttə, vəziyyətin bu cür formalaşması kitabın yayılmasına ciddi təsir göstərmiş, oxucuların sayı azalmış, əhalinin mütaliəyə marağı zəifləmişdir.

Göstərdiyimiz acınacaqlı vəziyyətin aradan qaldırılması üçün təcili surətdə Bakının hər rayonunda, digər böyük şəhərlərdə və kənd rayonlarında kitab mağazaları açılmalı, onun reklamına və təbliğinə ciddi fikir verilməli, kütləvi informasiya vasitələrində, radio və televiziyada yeni kitabları təbliğ etmək üçün daimi rubrikalar yaradılmalıdır. Böyük şəhərlərdəki təhsil ocaqlarında, mədəni-maarif müəssisələrində, mədəniyyət saraylarında, parklarda kitab günləri, yazıçılarla, alimlərlə, jurnalistlərlə görüşlər keçirilməli, kitaba, onun tərbiyəvi, elmi əhəmiyyətinə dair təbliğat xarakterli kinofilmlər çəkilməli, yeni kitabların satış təqdimatı keçirilməlidir.

Müasir dövrdə kitabxanalarımızın qarşısında duran ən mühüm problem mütaliə ilə bağlıdır. Bu, təkcə kitabxanaların yox, bütün cəmiyyətin problemidir. Mütaliə - yazılı informasiyanın mənimsənilməsi, ardıcıl və davamlı oxu deməkdir. Yazılı informasiya daha etibarlı, sınanmış, dəfələrlə yoxlanılmış mötəbər informasiyadır. İnsanlara gərəkli olan məlumatı isə kitablardan, jurnallardan və qəzetlərdən əldə etmək olar.

Ölkəmizdə son dövrlərdə mütaliə edən insanların, xüsusilə gənclərin sayının azalması günbəgün mütaliəni və oxu mədəniyyətini sistemli böhran həddinə gətirib çıxarır. Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsinin hesabatlarına görə, ölkənin yaşlı əhalisinin ancaq 50 faizindən çoxu kitabxanaların oxucusudur. Onların xeyli hissəsi daimi deyil, özlərinə müəyyən sahəyə dair informasiya lazım olanda kitabxanaya müraciət edən insanlardır.

Beləliklə, kitabxana işinin son dövr fəaliyyətinin təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olur ki, bütün dünyada olduğu kimi, respublikamızda da son illərdə mütaliəyə münasibət dəyişmiş, onun səviyyəsi aşağı düşmüş, oxucuların sayı xeyli azalmışdır. Bu acınacaqlı vəziyyətin uzun müddət davam etməsi millətin faciəsinə çevrilə bilər. Doğrudur, mütaliəyə marağın azalması bütün dünyanı bürümüş bir meyldir. Təhlükəli meylin qarşısını almaq üçün bir çox ölkələr xüsusi strateji proqramlar qəbul edib, səmərəli üsullar həyata keçirirlər. Problemin həllində kitabxanaların mühüm rol oynaya biləcəyini nəzərə alaraq onların vəziyyətini yaxşılaşdırmaq, oxuculara xidmət işini günün tələbləri səviyyəsinə qaldırmaq zəruri qaçılmazdır.

Hazırda respublikamızın kütləvi kitabxanalarının 70 faizindən çoxu bir otaqda yerləşir, oxu zalları yoxdur. Oxu zalı olmayan kitabxanalar oxuculara ancaq abonement vasitəsilə xidmət edir ki, bu da insanların kitabxanadan uzaqlaşmasına səbəb olur. Məlumat ədəbiyyatı və dövri mətbuat evə verilmədiyindən oxucular kitabxana-informasiya xidməti ilə tam təmin olunmur. Həmçinin kitabxanaların müasir avadanlıqla, kitabxana-informasiya texnologiyası ilə zəif təchizatı burada oxucunun yeni kitablar haqqında informasiya ala bilməməsinə səbəb olur, beləliklə də o, tədricən kitabxanadan uzaqlaşır.

Müasir şəraitdə kitabxanalarımızın ən böyük bəlası onların fondlarının kasadlığı, müasir oxucunun tələbatını ödəyə bilməməsidir. Bunun bir çox obyektiv və subyektiv səbəbləri var. Ölkəmizdə yeni əlifbanın qəbul edilməsi kitabxana fondlarının operativliyinin azalmasına, onun sürətlə köhnəlməsinə gətirib çıxardı. Digər tərəfdən, keçid dövrünün çətinlikləri ilə əlaqədar kitabxanaların zəif maliyyələşdirilməsi kitabxana fondlarının yeni ədəbiyyatla komplektləşdirilməsini heçə endirdi. 90-cı illərdə kütləvi kitabxanalar yeni kitablar və dövri mətbuat almaqdan məhrum oldular. Kitabxanaya ayrılan maliyyə vəsaiti ancaq onun yaşamasını təmin edə bilirdi. Yeni kitablar almayan kitabxana suyu sovrulan dəyirmana bənzəmirmi? İşləməyən dəyirmana kim gələr? Doğrudur, son zamanlar kitabxanalara ayrılan vəsaitin artırılması bu işi nisbətən də olsa, qaydaya salmışdır, Prezidentin fərmanı ilə çap edilən kitablardan hər birindən kütləvi kitabxanaya 4-5 nüsxə göndərilməsi də bu fondların dirçəlməsinə, canlanmasına səbəb olmuşdur.

Təəssüf ki, Maliyyə Nazirliyi tərəfindən rayon kitabxanalarına kitab alınmasına dair qəbul etdiyi sənəd yeni nəşrlərin alınması işini xeyli çətinləşdirir. Bu sənədə görə, kitabxana işinə ayrılan vəsait bütün sosial, mədəniyyət müəssisələrinə ayrılan vəsaitə daxil olmuşdur. Yerlərdə isə əksər hallarda ayrılan vəsaiti digər müəssisələrə verdiklərindən kitabxanalara vəsait qalmır. Bizcə, bu maddə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olmalıdır. Qanunda göstərilir: "Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır". Bizcə, ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış "Kitabxana işi haqqında" qanunun bu bəndinə ciddi əməl edilməlidir.

Təkcə kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, kitabxana fondlarını lazımi ədəbiyyatla komplektləşdirməklə iş bitmir. Əsas vəzifə onların imkanlarından istifadə edərək oxucuya xidməti, əhalini kitabxana oxucuları sırasına cəlb etmək işini günün tələbləri səviyyəsinə qaldırmaq, mütaliə prosesini idarə etməkdir. Mənəvi-intellektual tələbat insan üçün əbədi ehtiyacdır. Təbiət və cəmiyyət, onun inkişaf qanunları haqqında lazımi biliklər əldə etmədən yaşadığımız dövrün fəal üzvü olmaq mümkün deyildir. Bu baxımdan öyrənməyin, məlumatlanmağın, dövrlə ayaqlaşmağın ən mühüm vasitəsi mütaliədir, fasiləsiz təhsildir. Məlumdur ki, insan müxtəlif şəraitdə, evdə, işdə, istirahət müəssisələrində mütaliə edə bilər. Lakin tələbatına müvafiq olaraq hər hansı mövzu və ya problem haqqında mükəmməl elmi məlumat əldə etmək məqsədi daşıyan mütaliə isə yalnız kitabxana şəraitində baş verə bilər. Belə ki, kitabxanaların zəngin kitab fondu, fondun araşdırılması üçün məlumat aparatı,

müxtəlif lüğətlərin, ensiklopediyaların və digər məlumat ədəbiyyatının mövcudluğu, lazımi texniki vasitələr, eləcə də istənilən zaman mütəxəssis kitabxanaçının köməyindən istifadə etmək imkanı burada mütaliə prosesinin daha effektli və ona sərf edilən vaxtın səmərəli olmasına zəmin yaradır. Bu baxımdan informasiya cəmiyyəti şəraitində kitabxanaların qarşısında bütün əhalini oxucu sırasına cəlb etmək kimi çox mühüm vəzifə qoyulmuşdur.

Müasir oxucunu kitabxanadan uzaqlaşdıran, mütaliə marağının azalmasına səbəb olan problemlərdən biri də mövcud kitabxanalarda oxuculara kitabxana xidmətinin lazımi səviyyədə təşkil edilməməsidir.

Məlum həqiqətdir ki, əhaliyə keyfiyyətli kitabxana-informasiya xidmətinin təşkili və insanların mütaliəyə cəlb edilməsi yüksək ixtisaslı, peşəkar kitabxanaçı kadrlardan da asılıdır. Müasir şəraitdə yüksək ixtisaslı, sürətlə yeniləşən informasiya texnologiyasından baş çıxaran, cəmiyyətin inkişaf sürəti ilə ayaqlaşan, öz ixtisasını sevən peşəkar kitabxanaçılara olduqca böyük ehtiyac var. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, respublikamızın kitabxanaçılarının müasir vəziyyəti bu tələbata cavab vermir. Ölkəmizdə təxminən 30 minə qədər kitabxanaçı çalışır. Onların təxminən 80 faizdən çoxunun kitabxanaçılıq təhsili yoxdur. Kitabxanalara işə yeni işçi qəbul edərkən onun ixtisas təhsilinin olub-olmamasını soruşmurlar. Kitabxanaçı peşəsi bir növ tramplinə çevrilmişdir. Müxtəlif ixtisaslar üzrə ali məktəbi bitirmiş şəxslər öz peşələri üzrə iş tapa bilmədikdə kitabxanalarda işə düzəlir, ixtisasları üzrə iş tapan kimi kitabxanaçılığı buraxıb gedirlər.

Beləliklə də, kitabxanalarda müntəzəm olaraq kadr axını davam edir. Respublikamızda ali peşə təhsilli kitabxanaçı kadrları Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi, orta ixtisas təhsilli kadrları isə Bakı Mədəni Maarif məktəbi hazırlayır. Son illərdə bu təhsil müəssisələrinə qəbul 2 dəfədən çox azalmış, həmin tədris müəssisələrini qurtaran məzunlar üçün təyinat aparılmamışdır. Bu da kitabxanaların kadr potensialının tədricən zəifləməsinə, yeni, yüksək ixtisaslı kadrlardan məhrum olmasına gətirib çıxarmışdır.

Son zamanlar respublikamızda məktəb kitabxanalarının maddi-texniki bazalarının möhkəmlənməsi, yeni abad binalarla, kitabxana işinin texniki vasitələri ilə daha intensiv təmin edilməsinə baxmayaraq, onların işində də həll edilməsinə böyük ehtiyac olan problemlər qalmaqdadır. Hər şeydən əvvəl məktəb kitabxanalarının maddi-texniki bazası çox zəifdir. Demək olar ki, məktəblərin əksəriyyətində kitabxanalar bir otaqda yerləşir. Oxu zallarının olmaması şagirdlərlə iş aparmaqda çətinliklər yaradır. Kitabxanaçıların şagirdlərin mütaliəsinə nəzarət etmək, onlarda mütaliəyə maraq aşılamaq, fərdi iş aparmaq imkanı yoxdur. Həmçinin məktəb kitabxanalarının fondu çox zəifdir. Sinifdənkənar oxu üçün istənilən ədəbiyyat yoxdur.

Şagirdlərin çox maraq göstərdiyi yeni bədii ədəbiyyat olduqca azdır. Kitabxanalara yeni ədəbiyyat almaq üçün ayrılan vəsait kitabxanaların kitaba olan tələbatını ödəmir. Məktəblərdə dərsliklərlə iş, yeni dərsliklərin alınıb şagirdlərə paylanması və onlardan geri alınması kitabxanaya tapşırıldığından, kitabxanaçının oxuculara kitabxana-informasiya xidməti göstərməsinə ciddi mane olur. Yaxşı olardı ki, dərsliklərlə iş üçün ayrıca ştat ayrılaydı. Bundan başqa, kadrların seçilib yerləşdirilməsi lazımi səviyyədə təşkil edilmir. Məktəb kitabxanaları içərisində yüksək ixtisaslı peşəkar kitabxanaçıların sayı azdır. Belə kadrların sayı respublika üzrə təxminən 10 faizdən bir az çoxdur.

Məktəb kitabxanalarına müdir vəzifəsinə əksər hallarda pedaqoji fəaliyyətdən uzaqlaşmış müəllimləri təyin edirlər. Son illərdə BDU-nun kitabxanaçılıq informasiya fakültəsini bitirən bir nəfər məzun belə təyinatla məktəb kitabxanalarına işə göndərilməmişdir.

Məktəb kitabxanalarına rəhbərlik də ürəkaçan vəziyyətdə deyildir. Təhsil Nazirliyinin minə yaxın kitabxanasının olmasına baxmayaraq, nazirliyin aparatında kitabxana işinə rəhbərlik edəcək bir qurum və ya bir mütəxəssis belə yoxdur. Məktəb kitabxanaları nədənsə oxuculara xidmət edərkən ənənəvi iş, forma və üsullarından, yeni kitab sərgilərindən, kitab müzakirələrindən, oxucu konfranslarından, yeni kitabların təqdimatlarından, yazıçılarla, şairlərlə, incəsənət xadimləri ilə görüşlərdən və s. az istifadə edirlər.

Bütün bunlara əsasən demək olar ki, respublikamızda kitabxana işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün olduqca ciddi tədbirlər görməyin, islahatlar aparmağın vaxtı çatmışdır.

● **Abuzər XƏLƏFOV,**
***əməkdar elm xadimi,***
***tarix elmləri doktoru, professor***